Scientific News of Azerbaijan State
Academiy of Physical Education and Sport

SPORT SCIENCE JOURNAL
Volume 1 № 1 2019

# OLİMPİYA OYUNLARINDA İŞTİRAK EDƏN LEGİONER İDMANÇILARIN EFFEKTİVLİYİ

Rzayev Zaur
Həmidzadə Babək
Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
hamidzadab023@gmail.com abucavad@gmail.com

**Xulasə:** Olimpiya Oyunlarında iştirak edən legioner idmançıların effektivliyi. Tədqiqatlar nəticəsində məlum olmuşdur ki, Olimpiya komandasının heyətinə cəlb olunan legionerlərin sayı 2004-cü il Afina yay Olimpiya oyunlarından başlayaraq artmış və 2016-cı il Rio Olimpiadasında rekord saya-33 nəfərə çatmışdır. Cəlb olunmuş legionerlərin onların qazandıqların medallara nisbəti aşağıdakı kimidir: Afina Yay Olimpiya oyunları-legionerlərin heç biri medal qazanmamışdır. Pekin yay Olimpiya oyunları-legionerlərin təxminən 30%-i medalla geri dönmüşdür. London yay Olimpiya oyunları-legionerlərin təxminən 55%-i medal qazanmışdır. Son Rio Olimpiya oyunlarınnda isə legionerlərin 61%-i medal qazanmışdır.

**Açar sözlər:** Olimpiya, Olimpiya oyunları, legioner, effektivlik, Yay Olimpiya oyunları, qrafik, cədvəl, diaqram, Olimpiya oyunları haqqında məlumat, Milli Olimpiya Komitəsi.

1992-ci il Barselona yay Olimpiya oyunları. Bu yarışlarda 169 ölkədən 9367 idmançı 28 idman növü üzrə yarışırdılar. Azərbaycan yığma komandası bu yarışa aşağıdakı heyətlə yollanmışdı. Nazim Hüseynov(cüdo), Valeri Belenki(gimnastika), İlqar Məmmədov(qılıncoynatma), Valeri Timoxin(stend atıcılığı), Valentina Popova (tennis). Bu yarışa yollanan idmançıların içərisində legioner idmançı yoxdur. Medalları isə, Nazim Hüseynov (qızıl), Valeri Belenki (bürünc) qazandılar.

1996-cı il Atalantada keçirilən yay Olimpiya oyunlarında 197 ölkədən 10318 idmançı var idi. Azərbaycan bu yarışa 23 idmançı ilə yollanmışdı ki(4atlet (Elvira Cabbarova, Arif Axundov, Vasif Əsədov, Aleksey Fatyanov), 2 yunan-roma güləşçisi (Vilayət Ağayev. Tahir Zahidov), 6 sərbəst güləşçi(Namiq və Arif Abdullayevlər, Elşad Allahverdiyev, Məhəmmədsalam Hacıyev, Məhəmməd İbrahimov, Davud Məhərrəmov), 2 cüdoçu (Nazim Hüseynov, Zülfiyyə Hüseynova), 2 boksçu ( Ədalət Məmmədov, İlham Kərimov), 2 ağırlıqqaldıran (Asif Məlikov, Tofiq Heydərov), 1 qılıncoynadan (Elxan Məmmədov), 1 üzgüçü (Emin Quliyev), 1 suyatullanan (Emin Cəbrayılov), 1 güllə atıcısı (İradə Haşımova) və 1 stendçi (Valeri Timoxin)), bunlarında içərisində legioner yox idi. Bu yarışlarda Azərbaycan yalnız bir medalla kifayətləndi. Yeganə medalımızı isə sərbəst güləşçimiz Namiq Abdullayev qazandı.

2000-ci il Avstraliyanın paytaxtı Sidney şəhərində keçirilən Olimpiya oyunlarında 200 ölkənin 10651 idmançısı çıxış edirdi. Bunlarda 31-i Azərbaycan yığma komandasının üzvləri idi: Zemfira Meftəhəd-dinova (stend atıcılığı), İradə Haşımova(güllə atıcılığı), Elçin İsmayılov, Rəsul Səlimov, Zülfiyyə Hüseynova, Mehman Əzizov(cüdo), Mahac Nurəddinov, Məhəmməd Ariphacıyev (L), Ruslan Xairov (L), Əli İsmayılov, Vüqar Ələkbərov (boks), Namiq və Arif Abdullayev, Şamil Əfəndiyev, Elşad Allahverdiyev, Davud Məhəmmədov(L), Rəcəb Əshəbəliyev(Sərbəst güləş), Natiq Eyvazov, İslam Diquçiyev(L), Xviça Biçanaşvili (L) (yunan roma güləşi), Turan Mirzəyev, Nizami Paşayev, Elxan Süleymanov, Təranə Abbasova(ağırlıqqaldırma), Emil Cəbrayılov (suya tullanma), Alisa Xalyeva(L), Emil Quliyev(üzgüçülük), Teymur Qasımov, Faiq Bağırov, Sergey Boçkov (L), Aida İsayeva (atletika). Yığma komandamızın heyətində 7 legioner idmançı çıxış etsədə bunlardan heç biri Olimpiya medalı qazana bilmədi. Medalçılarımız isə: Zemfira Meftəhəddinova, Namiq Abdullayev (qızıl), Vüqar Ələkbərov (bürünc medal) oldu.

2004-cü il Yunanıstanın paytaxtı Afina şəhərində keçirilən Olimpiya oyunlarında 10000 nəfər idmançı 202 ölkəni təmsil edirdi.

Azərbaycanı təmsil edən idmançıların sayı 38 nəfər təşkil edirdi ki, bunlardan cəmi 4 nəfər legioner idmançı idi. Bu Olimpiya oyunlarında Azərbaycan idmançılarının heyəti belə idi: Asif Məlikov, Turan Mirzəyev, Nizami Paşayev, Əlibəy Səmədov, Alan Naniyev(L) (ağırlıqqaldırma-5), İradə Aşumova, Zemfira Meftəhəddinova (atıcılıq-2), Anna Qurbanova(gimnastika-1), Ceyhun Əbiyev, Fuad Aslanov, Ağası Məmmədov, Şahin İmranov, Rövşən Hüseynov, Ruslan Xayirov(L), Cavid Tağıyev, Əli İsmayılov, Vüqar Ələkbərov( boks- 9 ), Yelena Jemayeva(L) (qılıncoynatma-1), Sergey Dyaçkov, Natalya Filina(üzgüçülük-2), Teymur Qasımov, Dadaş İbrahimov, Əlibəy Şükürov, Sergey Boçkov(L), Mariya Lapina(atletika-5), Elçin İsmayılov, Mehman Əzizov, Mövlud Mirəliyev( cüdo), Niyaməddin Paşayev, Rəşad Əhmədov (taekvondo), Namiq Abdullayev, Elman Əsgərov, Elnur Aslanov, Rüstəm Ağayev, Vitali Rəhimov, Fərid Mansurov, Vüqar Aslanov(güləş). Lakin bu dəfə də, medalları Fərid Mansurov(qızıl), Zemfira Meftəhəddinova, İradə Aşumova, Ağası Məmmədov, Fuad Aslanov (bürünc) qazandılar.

2008-ci ildə Pekində təşkil olunmuş XXIX Olimpiya oyunlarında 204 ölkənin 11334 idmançısı çıxış edirdi. Azərbaycan yığma komandası isə 44 idmançıdan ibarət idi. Bu dəfə ölkəmizi bədii gimnastikada fərdi yarışlarda 2(Aliyə Qarayeva və Dinarə Gimatova), qrup hərəkətlərində 6 nəfər(Vəfa Hüseynova, Valeriya Yeqay, Alina Tropina, Anastasiya Prosolova, Anna Bitiyeva, Dina Qorina), yunan– roma güləşində 6 nəfər(Bayramov Rövşən, Rəhimov Vitali, Mansurov Fərid, Abdulov İlqar, Qarabadze Şalva(L), Botev Anton(L)), sərbəst güləşçilərdən 7 nəfər (Sevdimov Namiq, Hüseynov Zəlimxan, Temrezov Novruz(L), Qazyumov Xetaq(L), Camsulvarayev Camsulvar(L), İsayev Əli(L)), qadın güləşində 3 nəfər( Stadnik Mariya(L), Komarova Yelena(L), Zamula Olesya(L)), stend atıcılığında 1 nəfər ( Meftəhəddinova Zemfira), atıcılıqda 1 (Rəhimov Camal), atletikadda 2 (Quliyev Ramil, Abbasov Ruslan), ağırlıqqaldırmadda 5 (Həsənov Sərdar, Bayramov Əfqan, Mirzəyev Turan, Zairov İntiqam, Nizami Paşayev), taekvondoda 1 (Əhmədov Rəşad), üzgüçülükdə 2 (Abbasov Tural, Hətəmxanova Oksana), cüdoda 6 ( Qasımova Kifayət, Qasımov Ramil, Məmmədli Elnur, Əzizov Mehman, Məmmədov Elxan, Mirəliyev Mövlud), boksda 2 ( Məmmədov Samir, Şahin İmranov) təmsil etmişlər. Olimpiya oyunlarına yollanmış 9 legioner idmançıdan 2-si(Mariya Stadnik, Xetaq Qazyumov) bürünc medal qazandı. Digər medal qazanan idmançılar: qızıl-Elnur Məmmədli, gümüş-Vitali Rəhimov, Rövşən Bayramov və bürünc-Mövlud Mirəliyev, Şahin İmranov.

2012-ci ildə Londonda keçirilmiş Olimpiya oyunlarında 204 ölkənin 10957 idmançısı medallar uğrunda mübarizə aparırdı. Bu oyunlara Azərbaycan 53 idmançı ilə yollanmışdı. Bu idmançıların təxminən yarısı-25 nəfəri legioner idmaçılardan təşkil olunmuşdur. Medal qazanan idmançılar aşağıdakılar olmuşlar: qızıl-Toğrul Əsgərov, Şərif Şərifov,gümüş-Rövşən Bayramov, Mariya Stadnik,bürünc-Emin Əhmədov, Yuliya Ratkeviç, Teymur Məmmədov, Məhəmədrəsul Məcidov,Xetaq Qazyumov. Gördüyünüz kimi Azərbaycan üçün medal qazanan idmançılardan 5-i legioner idmançı idi. (Dmitri Marşin(L), Layeş Abdullayeva (L), Hayle Abdullayev(L) (atletika), Fəridə Əzizova, Ramin Əzizov(taekvondo), Elvin Məmişzadə, Məhəmməd Abdulhəmidov(L), Heybətulla Hacıəliyev (L), Soltan Migitinov (L), Vətən Hüseynli, Teymur Məmmədov, Məhəmmədrəsul Məcidov(L), Yelena Vıstropova(L)(boks), İradə Aşumova (atıcılıq), Sergey Bezuqlı(L), Maksim Prokopenko (L),Valentin Demyanenko(L), Aleksandr Aleksandrov( L), Natalya Mustafayeva (L) (avarçəkmə), Rövşən Bayramov, Həsən Əliyev,Emin Əhmədov, Saman Təhmasibi(L), Şalva Qadabadze (L)(yunan-roma güləşi), Toğrul Əsgərov, Cəbrayıl Həsənov, Əşrəf Əliyev, Şərif Şərifov(L), Xetaq Qazyumov(L), Cəmaləddin Məhəmmədov(L)(sərbəst güləş), Mariya Stadnik(L), Yuliyya Radkeviç (L) (qadın güləşi), Yelena Çalıx (L) (velosiped idmanı), Aliyə Qarayeva, Şakir Şıxəliyev (gimnastika), Valentin Xrıstov(L), Əfqan

Bayramov, İntiqam Zairov, Sərdar Həsənov, Veliçko Çolakov(L), Boyanka Kostova (L)(ağırlıqqaldırma), Camal Rəhimov (atçılıq), Səbinə Mikina (qılıncoynatma), Yevgeni Lazuqa(L), Oksana Hətəmxanova (üzgüçülük), Kifayət Qasımova, Ramilə Yusubova, İlqar Müşkiyev, Tərlan Kərimov, Rüstəm Orucov, Elnur Məmmədli, Elxan Məmmədov, Elmar Qasımov(cüdo).

2016-ci il son Olimpiya oyunları Rio de janeyro şəhərində keçirilmişdir. Bir çox hadisələrlə yadda qalan Rio Olimpiya oyunlarında 207 ölkədən 10 mindən çox idmançı medallar uğrunda mübarizə aparırdı. Azərbaycan bu Olimpiya oyunlarına 56 nəfər idmançı ilə yollanmışdı. Bu dəfə isə rekord sayda-33 nəfər,

Yəni heyətin təxminən 60 faizi legionerlərdən ibarət idi (avarçəkmə-Aleksandr Aleksandrov(L), Boris Yotov(L), atıcılıq-Ruslan Lunev, gimnastika-Marina Durunda!( L), Oleq Stepko( L), Petro Paxnyuk(L), boks-Rüfət Hüseynov, Elvin Məmişzadə, Cavid Çələbiyev, Albert Səlimov(L), Lorenso Sotomayor(L), Pərviz Bağırov, Kamran Şahsuvarlı, Teymur Məmmədov, Abdulqadir Abdullayev(L), Məhəmmədrəsul Məcidov (L), Yana Alekseyeva (L), cüdo-Orxan Səfərov, Nicat Şıxəlizadə, Rüstəm Orucov, Məmmədəli Mehdiyev, Elmar Qasımov, Uşangi Kokauri (L), güləş-Rövşən Bayramov, Rəsul Çunayev, Elvin Mürsəliyev, Saman Təhmasibi(L), Sabah Şəriəti (L), Hacı Əliyev, Toğrul Əsgərov, Cəbrayıl Həsənov, Şərif Şərifov (L), Xetaq Qazyumov(L), Cəmaləddin Məhəmmədov(L), Mariya Stadnik(L), Nataliya Sinişin(L), Yuliya Ratkeviç(L), kamandan ox atma-Olqa Senyuk(L), kanoe-Yure Meqliç(L), Valentin Demyanenko(L), İnna Osıpenko-Rodomska(L), qılıncoyna-tma-Səbinə Mikina, velosiped-Maksim Averin(L), Yelena Pavlyuxina(L), Olqa İsmayılova(L), taekvondo-Milad Beigi(L), Radik İsayev(L), Patimat Abakarova(L), Fəridə Əzizova, t r iatlon- Rostislav Pevtsov(L), üzgüçülük-Boris Kirillov, Fatimə Alkərəmova, atletika-Hayle İbrahimov(L), Evans Kiplaqat(L), Nazim Babayev, Anna Skidan(L), Medalçılar isə bunlardır: Cüdo-Rüstəm Orucov (gümüş), Elmar Qasımov (gümüş), yunan-roma güləşi-Sabah Şəriəti (bürünc), Rəsul Çunayev(bürünc), kanoe sprint-İnna Osipenko-Radomska (bürünc), Valentin Demyanenko (gümüş), sərbəst güləş-Mariya Stadnik (gümüş), Nataliya Sinişin (bürünc), Hacı Əliyev (bürünc), Cəbrayıl Həsənov (bürünc), Şərif Şərifov (bürünc), Toğrul Əsgərov (gümüş), Xetaq Qazyumov (gümüş), taekvondo- Patimat Abakarova (bürünc), Milad Beigi (bürünc), Radik İsayev (qızıl), boks-Kamran Şahsuvarlı (bürünc),Lorenso Sotomayor (gümüş). Göründüyü kimi medalçılar sırasında 11 idmançı legioner olmuşdur. Aşağıda sizə bu məlumatlar əsasında hazırladığımız diaqramı təqdim edirik:

**Cədvəl №6**



# ЭФФЕКТИВНОСТЬ СПОРТСМЕНОВ-ЛЕГИОНЕРОВ ВЫСТУПАЮЩИХ НА ОЛИМПИЙСКИХ ИГРАХ

Рзаев Заур
Гамидзаде Бабек

**Аннотация:** Еффективность спортсменов-легионеров выступающих Олимпийских играх. В результате исследования выяснилось, что количество легионеров, участвующих в Олимпийской команде, увеличилось с Летних Олимпийских игр 2004 года в Афинах, и число дошло до рекордных числ- до 33 на Олимпийских играх года в Рио. Соотношение привлеченных легионеров к их медалями следующее: Летние Олимпийские игры в Афинах ни один из легионеров не завоевал медали. Летняя Олимиада в Пекине-около 30% легионеров вернулись с медалями. Почти 55% легионеров летних Олимпийских игр в Лондоне завоевали медали. На недавних играх в Рио 61% легионеров завоевали медали.

**Ключевые слова:** Олимпия, Олимпийские игры, летние Олимпийские игры, эффективность, график, диаграмм, информация об Олимпийских играх, Национальный Олимпийский Комитет

# PRODUCTIVITY OF SPORTSMANS-LEGIONARS WHO PARTICIPATED IN OLIMPIC GAMES

Rzayev Zaur
Hamidzade Babek

**Annotation:** Productivity of Sportsmans-legionars who participated in Olimpic games. Studies have shown us the legionars who have involved to olymic games has increased since 2004 afina summer olymic games and in 2016 it reached peak to 33 people. The legioners who have involved to olympic games are like that: at Afina olympic games they havent gained any medals but in pekin olympic games 30 percent of them gained medals while in london olympic games 50 percent of them got medals and in last Rio olympic games 61 %of them have come back with medals.

**Key words:** Olympic games, summer Olympic games, National Olympic Committee of the Azerbaijani Republic, shedule.

**Ədəbiyyat**

1. Əliyev A.,Bədən Tərbiyəsi Və İdman Tarixi kitabı.
2. Əliyev A. ,Qasımov Ə. ,Əsgərova N. Yay Olimpiya oyunları tarixindən Bakı-2010
3. Əbiyev A., Quliyev D. Helsinkidən başlayan yol. Bakı-2002.